# MƏHKƏMƏYƏ MÜRACİƏT QAYDALARI



# MƏHKƏMƏYƏ MÜRACİƏT QAYDALARI

məlumat kitabçası

**Bakı 2011**

**TƏRTİB EDƏNLƏR:**

**Həsənov Hafiz**
**Quliyeva Aynur**

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
**Bakı Ofisi**

**Məlumat kitabçası ATƏT-in Bakı Ofisinin "Fərdi şikayətlər" layihəsi çərçivəsində İnzibati Prosessual Məcəlləyə və məhkəmə sistemindəki dəyişikliklərə uyğun təkmilləşdirilərək təkrar nəşr olunub.**

**Kitabçanın elektron versiyasını aşağıdakı veb-səhifədən əldə edə bilərsiniz:** http://www.osce.org/baku

# MÜNDƏRİCAT

**Ön söz ........................................................................................ 4**

**I Fəsil. Məhkəmə Sistemi ........................................................ 8**
1.Birinci instansiya məhkəmələri ................................................ 8
2.Apellyasiya instansiyası məhkəmələri .................................... 11
3.Kassasiya instansiyası məhkəməsi .......................................... 12

**II fəsil. Məhkəməyə müraciət qaydaları ................................ 13**
1.Birinci instansiya məhkəməsinə müraciət .............................. 13
2.Apellyasiya məhkəməsinə müraciət ........................................ 22
3.Kassasiya məhkəməsinə müraciət ............................................ 26
4.Dövlət rüsumundan azadolmalar .............................................. 30

**III fəsil. Konstitusiya Məhkəməsinə müraciət ...................... 33**

**IV fəsil. Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət qaydaları ................................................................. 37**

**V fəsil. ATƏT-in Bakı Ofisinin Resurs Mərkəzləri ............. 43**

# Ön söz

**Əziz oxucular,**

”Məhkəməyə müraciət qaydaları” kitabçasının əsas məqsədi sizi məhkəməyə müraciətlə bağlı zəruri məlumatlarla təmin etməkdir.

Azərbaycan Respublikasının Konstitusiyası hər kəsin öz hüquq və azadlıqlarını məhkəmələrdə müdafiə etməsinə zəmanət verir. Konstitusiyanın 60-cı maddəsinə əsasən:

I. Hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir.

II. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən yaxud hərəkətsizliyindən məhkəməyə şikayət edə bilər.

Bu məlumat kitabçası məhkəməyə müraciət prosesində sizə bələdçilik etmək üçün hazırlanıb. Siz Azərbaycanın məhkəmə sistemi, birinci instansiya məhkəməsinə müraciət qaydaları, mülki və inzibati iddia ilə məhkəməyə müraciət edərkən nümayəndə, qanuni nümayəndə, vəkil məsləhətinin mühüm rolu ilə tanış olacaqsınız.

Məlumat kitabçası  həmçinin, birinci instansiya məhkəməsinin qərarından narazı qaldığınız və bununla əlaqədar növbəti məhkəmə instansiyalarına, yəni apellyasiya məhkəmələrinə və Azərbaycan Respublikası Ali Məhkəməsinə müraciət etmək istədiyiniz halda hansı addımları atmalı olduğunuza aydınlıq gətirir.

Kitabçada bunlarla yanaşı Konstitusiya Məhkəməsinə fərdi şikayətlərin verilməsi qaydaları da izah edilib.

Azərbaycan 25 yanvar 2001-ci ildən Avropa Şurasının üzvüdür. Avropa İnsan Hüquqları Konvensiyası Azərbaycana münasibətdə 15 aprel 2002-ci ildə qüvvəyə minib. Bu tarixdən Konvensiyanın 34 maddəsinə əsasən Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət hüququ yaranmışdır. Məlumat kitabçasında həmçinin, Avropa Məhkəməsinə müraciət qaydaları qısa şəkildə təsvir olunub.

Məlumat kitabçasının sonuncu bölməsi ATƏT-in Bakı Ofisinin dəstəyi ilə Sumqayıt, Gəncə, Şəki və Lənkəran şəhərlərində yaradılmış Hüquq Resurs Mərkəzlərinə həsr edilmişdir. Bu Mərkəzlərdə əhaliyə pulsuz hüquqi yardım göstərilir və təlim proqramları həyata keçirilir.

Ümid edirik ki, ”Məhkəməyə müraciət qaydaları” kitabçasının yenilənmiş variantı sizin üçün faydalı olacaq.

Kitabça ilə bağlı sual və təkliflərinizi ATƏT-in Bakı Ofisinə ünvanlaya bilərsiniz.

***ATƏT-in Bakı Ofisi***
***Qanunun Aliliyi və İnsan Hüquqları Şöbəsi***

# Foreword

**Dear reader,**

The main objective of the booklet titled “Applying to Court: Rules and Procedure” is to provide you with information that you can apply in practice when filing a claim with the Azerbaijani courts.

The Constitution of the Republic of Azerbaijan guarantees the right of every person to defend one’s rights and freedoms in the courts of Law. Article 60 of the Constitution reads:

I Legal protection of rights and liberties of every citizen is ensured.

II. Everyone may appeal to a court of Law regarding decisions and activities or inactions of state bodies, political parties, trade unions and other public organizations or officials.

This booklet is aimed at guiding you through the process of bringing your case before a court of Law. You will get familiar with the Azerbaijani court system, the rules on how to bring your case to the first instance courts, as well as the important role legal representatives play in advising you throughout the process of submitting civil and administrative claims to the court.

Further, the booklet explains the steps that you need to take if you are not satisfied with the decision of the first instance court and would like to challenge it before higher instance courts, such as the Appeal Courts and the Supreme Court of the Republic of Azerbaijan.

The booklet also contains the procedure to file an individual complaint with the Constitutional Court of the Republic of Azerbaijan.

On 25 January 2001 Azerbaijan became a member of the Council of Europe. The European Convention on Human Rights and Fundamental Freedoms (the Convention) entered into force in Azerbaijan on 15 April 2002. The right to apply to the European Court of Human Rights (ECtHR) under Article 34 of the Convention emerged since then. The rules and procedure on how to apply to the ECtHR are also briefly included in the booklet.

Finally, the last chapter of the booklet is devoted to the OSCE supported Legal Resource Centers providing free legal advice to the people and training for legal professionals in Sumgait, Ganja, Lankaran and Sheki.

We hope you will find the updated version of this booklet useful, and we welcome any questions or comments that you may have.

***OSCE Office in Baku***
***Rule of Law and Human Rights Department***

# I. MƏHKƏMƏ SİSTEMİ

Azərbaycanın məhkəmə sistemi Azərbaycan Respublikasının Ali Məhkəməsindən, apellyasiya məhkəmələrindən, ümumi məhkəmələrdən və digər ixtisaslaşdırılmış məhkəmələrdən ibarətdir.

Ədalət mühakiməsi irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər bir şəxsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi əsasında həyata keçirilir. ("Məhkəmələr və hakimlər haqqında"AR Qanununun 7-ci maddəsi)

**Azərbaycanda aşağıdakı üçpilləli məhkəmə sistemi fəaliyyət göstərir**.

1. **Birinci instansiya məhkəmələri;**
2. **Apellyasiya instansiyası məhkəmələri;**
3. **Kassasiya instansiyası məhkəməsi.**

## 1. BİRİNCİ İNSTANSİYA MƏHKƏMƏLƏRİ

**Birinci instansiya məhkəmələri aşağı (ilkin) məhkəmə orqanlarıdır və bu məhkəmə sisteminə rayon (şəhər) məhkəmələri, hərbi məhkəmələr, yerli inzibati-iqtisadi məhkəmələr və ağır cinayətlərə dair işlər üzə məhkəmələr daxildir.**

- **Rayon (şəhər) məhkəmələri**: Rayon (şəhər) məhkəmələri qanunla səlahiyyətlərinə aid **edilmiş mülki və cinayət işlərinə, inzibati xətalara** dair işlərə baxır.

Rayon (şəhər) məhkəmələri **mülki məhkəmə icraatı qaydasında** ***mülki, ailə, əmək, mənzil, torpaq münasibətləri, təbii ehtiyatlardan istifadə və ya ətraf mühitin qorunması, vergi və digər münasibətlərdən əmələ gələn mübahisələr üzrə işlərə baxır.*** Məhkəmə həmin işlərə tərəflərdən heç olmasa biri fiziki şəxsdirsə və onun fərdi sahibkar statusu yoxdursa və ya belə statusu olsa da, mübahisə onun sahibkarlıq fəaliyyətini həyata keçirməsi ilə əlaqədar yaranmamışsa baxır. Əks halda, işə yerli inzibati-iqtisadi məhkəmələr tərəfindən baxılır.

Rayon (şəhər) məhkəmələri **cinayət işlərinə**, ***böyük ictimai təhlükə törətməyən (iki ildən artıq olmayan müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulan işlər) və az ağır cinayətlərə (yeddi ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulan işlər)*** **dair işlərə baxır.**

- **İnzibati-İqtisadi məhkəmələr:** İnzibati - iqtisadi məhkəmələr qanunla səlahiyyətlərinə aid edilmiş inzibati və iqtisadi mübahisələrə dair işlərə baxır. İnzibati - iqtisadi məhkəmələr ölkənin **inzibati ərazi vahidləri və ya azad iqtisadi zonalar üzrə** təşkil edilir.
  Hazırda müvafiq əraziləri əhatə edən aşağıdakı inzibati - iqtisadi məhkəmələr fəaliyyət göstərir:
  - **1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi;**
  - **2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi;**
  - **Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi;**
  - **Gəncə İnzibati-İqtisadi Məhkəməsi**
  - **Sumqayıt İnzibati-İqtisadi Məhkəməsi;**
  - **Şirvan İnzibati-İqtisadi Məhkəməsi;**
  - **Şəki İnzibati-İqtisadi Məhkəməsi.**

- **Hərbi məhkəmələr:** Hərbi məhkəmə Azərbaycan Respublikasının Silahlı Qüvvələri və başqa silahlı birləşmələri hərbi hissələrinin sayı nəzərə alınmaqla onların yerləşdikləri

inzibati ərazi vahidləri üzrə yaradılır. **Hərbi məhkəmələr müharibə cinayətləri və hərbi xidmət əleyhinə olan *böyük ictimai təhlükə törətməyən, az ağır, ağır və xüsusilə ağır cinayətlərə dair işlərə,* habelə hərbi qulluqçular tər*əfindən törədilmiş böyük ictimai təhlükə törətməyən, az ağır*, ağır *və xüsusilə ağır cinayətlərə dair işlərə* baxır. Göstərilən cinayətlər *hərbi qulluqçu olmayan şəxsin iştirakı ilə törədilərsə, onun barəsin*də işə də hərbi məhkəmə** tərəfindən baxılır.

**Hazırda müvafiq əraziləri əhatə edən aşağıdakı hərbi məhkəmələr fəaliyyət göstərir:**

- **Bakı hərbi məhkəməsi;**
- **Naxçıvan Muxtar Respublikası hərbi məhkəməsi;**
- **Gəncə hərbi məhkəməsi;**
- **Cəlilabad hərbi məhkəməsi;**
- **Füzuli hərbi məhkəməsi;**
- **Tərtər hərbi məhkəməsi.**

**Ağır cinayətlər məhkəmələri:** Ağır cinayətlər məhkəmələri birinci instansiya məhkəmələri kimi qanunla səlahiyyətlərinə aid edilmiş cinayət işlərinə baxırlar. Ağır cinayətlər məhkəmələri ölkənin inzibati ərazi vahidləri üzrə müəyyən edilir. Azərbaycan Respublikasında aşağıdakı ağır cinayətlər məhkəmələri fəaliyyət göstərir:

- **Bakı Ağır Cinayətlər Məhkəməsi;**
- **Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi;**
- **Gəncə Ağır Cinayətlər Məhkəməsi;**
- **Şəki Ağır Cinayətlər Məhkəməsi;**
- **Lənkəran Ağır Cinayətlər Məhkəməsi.**

Ağır cinayətlər məhkəmələri **ağır cinayətlərə** ***(yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulan cinayətlər)*** **və xüsusilə ağır cinayətlərə** ***(on iki ildən artıq müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulan cinayətlər)*** dair işlərə baxır.

## 2. APELLYASİYA İNSTANSİYASI MƏHKƏMƏLƏRİ

**Apellyasiya məhkəmələri mülki, inzibati-iqtisadi mübahisələrə dair, cinayət və inzibati xətalara dair işlər üzrə yuxarı məhkəmə orqanıdır. Apellyasiya məhkəməsi birinci instansiya məhkəməsinin qətnamə və qərardadlarından, hökm və qərarlarından verilmiş şikayətlərə baxır.**

Apellyasiya məhkəmələrində işlərə, aidiyyət üzrə mülki kollegiya, inzibati-iqtisadi kollegiya, cinayət kollegiyası və hərbi kollegiyada baxılır. Məhkəmə kollegiyalarında işlərə baxmaq üçün üç hakimdən ibarət məhkəmə tərkibləri yaradılır.

Hazırda səlahiyyət dairəsi müvafiq əraziləri əhatə edən aşağıdakı apellyasiya instansiyası məhkəmələri fəaliyyət göstərir:

- **Bakı Apellyasiya Məhkəməsi;**
- **Sumqayıt Apellyasiya Məhkəməsi;**
- **Gəncə Apellyasiya Məhkəməsi;**
- **Şirvan Apellyasiya Məhkəməsi;**
- **Şəki Apellyasiya Məhkəməsi;**
- **Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi**

## 3. KASSASİYA İNSTANSİYASI MƏHKƏMƏSİ

Ali Məhkəmə kassasiya instansiyası məhkəməsi kimi qanunla müəyyən edilmiş prosessual qaydada ədalət mühakiməsini həyata keçirir.

Ali Məhkəmə ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid olan mülki (o cümlədən inzibati-iqtisadi mübahisələrə dair), cinayət işləri və digər işlər üzrə ali məhkəmə orqanıdır.

Ali Məhkəmə Bakı şəhərində yerləşir və onun səlahiyyət dairəsi Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir.

Ali Məhkəmədə mülki kollegiya, inzibati-iqtisadi kollegiya, cinayət kollegiyası və hərbi kollegiya təşkil edilir. Ali Məhkəmənin kollegiyaları apellyasiya məhkəmələrinin aktlarına (qərarlarına) kassasiya qaydasında baxır.

Ali Məhkəmənin Plenumu Ali Məhkəmə sədrinin təqdimatı, Azərbaycan Respublikası Baş Prokurorunun protesti (etirazı) və ya müdafiə tərəfinin şikayəti əsasında əlavə kassasiya işlərinə və yaxud hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə işlərə baxır.

## II. <u>MƏHKƏMƏYƏ MÜRACİƏT QAYDALARI</u>

Azərbaycan Respublikasının Konstitusiyası hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verir. Burada göstərilir ki, hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət verə bilər.

**Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 4-cü maddəsinə** əsasən bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

**"Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında" Qanuna** əsasən dövlət orqanlarının və yerli özünüidarə orqanlarının, müəssisələrin, idarələrin və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətləri (hərəkətsizliyi) nəticəsində öz hüquq və azadlıqlarını pozulmuş hesab edən Azərbaycan Respublikasının hər bir vətəndaşının məhkəməyə müraciət etmək hüququ vardır.

**Məhkəməyə müraciət ərizə və ya iddia ərizəsi formasında edilir.**

### 1. <u>BİRİNCİ İNSTANSİYA MƏHKƏMƏSİNƏ MÜRACİƏT</u>

**Mülki prosessual qanunvericilik mülki məhkəmə qaydasında işlərə iddia icraatı, xüsusi iddia icraatı və xüsusi icraat qaydasında baxılmasını nəzərdə tutur.**

**a) İşlərə mülki məhkəmə icraatı qaydasında baxılması**

- **<u>İşlərə iddia icraatı qaydasında baxılması</u>**

**<u>Mülki məhkəmə icraatı qaydasında</u> mülki, ailə, əmək, mənzil, torpaq münasibətləri, təbii ehtiyatlardan istifadə olunması və ya ətraf mühitin qorunması, vergi, və digər münasibətlərdən əmələ gələn mübahisələrə <u>iddia icraatı qaydasında</u> baxılır. Bu işlərə,** tərəflərdən heç olmasa biri fiziki şəxsdirsə və onun fərdi sahibkar statusu yoxdursa və ya belə statusu olsa da, mübahisə onun sahibkarlıq fəaliyyətini həyata keçirməsi ilə əlaqədar yaranmamışsa, rayon (şəhər) məhkəmələrində baxılır. Əks halda, işə yerli inzibati-iqtisadi məhkəmələr tərəfindən baxılır.

**Qanunla başqa hal nəzərdə tutulmamışdırsa, iddia cavabdehin rəsmi qeydə alındığı yerin məhkəməsinə verilir. İddia ərizəsi yazılı şəkildə hazırlanır və iddiaçı tərəfindən imzalanır. Əgər iddiaçının nümayəndəsi, qanuni nümayəndəsi və ya vəkili varsa, onda ərizə həmin şəxslər tərəfindən də imzalanmalıdır.**

**Qeyd edək ki,** hər bir şəxs şəxsən, yaxud müvafiq vəkalətnamə əsasında səlahiyyəti müəyyən edilmiş **nümayəndəsi** vasitəsi ilə də məhkəmədə iddia qaldıra bilər.

Fəaliyyət qabiliyyəti olmayan, tam fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarını və qanunla qorunan mənafelərini məhkəmədə onların valideynləri, övladlığa götürənlər, qəyyumları, himayəçiləri və başqa şəxslər müdafiə edirlər. Bu şəxslər **qanuni nümayəndələr** adlanır və onların işdə vəkalətnamə ilə çıxış etmələri tələb olunmur.

**Nəzərə almaq lazımdır ki, qanun birinici instansiya və apellyasiya instansiyası məhkəməsinə müraciət edildikdə, şikayətin vəkil tərəfindən tərtib edilməsini və məhkəmədə vəkilin iştirakını məcburi şərt kimi nəzərdə tutmur. Yalnız Ali Məhkəməyə kassasiya və əlavə kassasiya şikayətinin**

**tərtib edilməsində və işə baxılmasında vəkilin iştirakı məcburidir.** Ərizəçi (İddiaçı) vəkil xidmətindən istifadə etmək istəyərsə, onda vəkillə bu barədə müqavilə bağlamalıdır. Bunun üçün Vəkillər Kollegiyasının hüquq məsləhətxanalarına, hüquqi yardım firmalarına və vəkillik fəaliyyəti ilə fərdi qaydada məşğul olan şəxslərə müraciət edilə bilər.

**Əgər ərizəçinin maddi vəziyyəti ödənişli vəkil xidmətindən istifadəyə imkan vermirsə, onda onun dövlət hesabına hüquqi yardım xidmətindən istifadə etmək hüququ vardır (Konstitusiyanın 61-ci maddəsi). Ərizəçi bunun üçün birinci instansiya məhkəməsinə (iddiaya müvafiq olaraq rayon (şəhər) məhkəməsinə və ya yerli iqtisad məhkəməsinə) və apellyasiya məhkəməsinə müraciət üçün vəkillə təmin olunma xahişi ilə birinci instansiya məhkəməsinə müraciət edə bilər. Kassasiya şikayəti verdikdə isə ərizəçi apellyasiya şikayətinə baxmış apellyasiya məhkəməsinə müraciət edə bilər. Bu halda, ərizəçi maddi vəziyyətinin pullu xidmətdən istifadəyə imkan verməməsini təsdiq edən müvafiq sənədi müraciətinə əlavə etməlidir *(məsələn, təqaüdçü olmasını təsdiq edən sənəd və ya işsizliyini təsdiq edən məşğulluq idarəsinin arayışı və s.).***

**<u>İddia ərizəsində aşağıdakı məlumatlar əks olunmalıdır:</u>**

- ***ərizənin verildiyi məhkəmənin adı;***
- ***işdə iştirak edən şəxslərin adları, onların poçt ünvanları;***
- ***iddiaçının və ya ərizəçinin tələbi, onların öz tələblərini əsaslandırdıqları hallar, iddia bir neçə cavabdehə verildikdə isə onların hər birinə qarşı yönələn tələb;***
- ***müqavilə ilə və ya həmin kateqoriya işlər üçün qanunla bu nəzərdə tutulmuşsa, cavabdehlə mübahisənin məhkəməyə qədər (pretenziya) qaydada nizama salınmasına riayət edilməsinə dair məlumat;***

- ***ərizəyə əlavə edilən sənədlərin siyahısı.***

**<u>İddia ərizəsinə aşağıdakı sənədlər əlavə edilir:</u>**

- ***Cavabdehlərin və üçüncü şəxslərin sayına görə iddia ərizəsinin surətləri;***
- ***dövlət rüsumunun ödənilməsi haqqında sənəd;***
- ***əgər nümayəndə varsa, nümayəndənin səlahiyyətlərini təsdiq edən etibarnamə və ya digər sənəd;***
- ***iqtisadi mübahisələr üzrə işdə iştirak edən digər şəxslər tərəfindən iddia ərizəsinin surətinin və ona əlavə edilmiş sənədlərin alınması haqqında sənəd;***
- ***iddiaçının öz tələblərini əsaslandırdığı hallara dair sənədlər, əgər bu sənədlərin surətləri cavabdehlər və üçüncü şəxslərdə yoxdursa, onlara verilmək üçün bu sənədlərin surətləri;***
- ***onun mübahisələndirildiyi halda, normativ aktın mətni;***
- ***müqavilə ilə və ya həmin kateqoriya mübahisələr üçün qanunda bu nəzərdə tutulmuşsa, cavabdehlə mübahisənin məhkəməyə qədər və ya pretenziya qaydasında nizama salınmasına riayət edilməsini təsdiq edən sənəd.***

**İddia ərizəsi, əgər məhkəmə onu daxil olmasından 2 həftə müddətində qaytarmayıbsa və ya onu qəbul etməkdən imtina etməyibsə, qəbul edilmiş sayılır.** İşə, işdə iştirak edən şəxslər mütləq xəbərdar edilməklə, məhkəmə iclasında baxılır.

Ərizə məhkəməyə daxil olduğu vaxtdan sonra **3 aydan gec olmayan müddətdə** işə baxılmalı və həmin işin həllinə dair qətnamə və ya qərardad çıxarılmalıdır.

Ayrı-ayrı kateqoriya işlərə baxılması və onların həllinə dair qətnamə və ya qərardad çıxarılması üçün qanunla qısaldılmış müddətlər müəyyən edilir.

Mülki işlərə və iqtisadi mübahisələrə birinci instansiya məhkəmələrində hakim tərəfindən təkbaşına baxılır.

**İşi mahiyyəti üzrə həll edən birinci instansiya məhkəməsinin aktı qətnamə formasında çıxarılır.**
**İş mahiyyəti üzrə həll edilmədikdə məhkəmə aktları qərardad formasında çıxarılır.**

Tərəflər, üçüncü şəxslər, maraqlı şəxslər, pozulmuş və ya mübahisə edilən hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək hüququ olan ictimai təşkilatlar, dövlət orqanları və digər orqanlar işdə iştirak edən şəxslərdirlər.

**Prosesdə tərəflər iddiaçı və cavabdeh hesab edilirlər.** Fiziki və hüquqi şəxslər, vəzifəli şəxslər, dövlət orqanları və başqa orqanlar iddiaçı və ya cavabdeh qismində çıxış edə bilərlər.

İşdə iştirak edən şəxslər işin materialları ilə tanış olmaq, onlardan çıxarışlar etmək və surət çıxarmaq, etirazlar vermək, sübutlar təqdim etmək və onların tədqiqində iştirak etmək, işdə iştirak edən digər şəxslərə, şahidlərə, ekspertlərə və mütəxəssislərə suallar vermək, vəsatətlər, o cümlədən də əlavə sübutların tələb edilməsi barədə **vəsatətlər *(məhkəmənin gedişi və işin mahiyyəti üzrə məhkəmə qarşısında konkret məsələlər qaldırmaq)* vermək, məhkəməyə şifahi və yazılı izahatlar vermək, məhkəmə prosesinin gedişi vaxtı ortaya çıxan bütün məsələlər barədə dəlillər gətirmək, işdə iştirak edən digər şəxslərin vəsatət və dəlillərinə etiraz etmək, məhkəmə qərarlarından şikayət etmək və mülki məhkəmə icraatı barədə qanunvericilikdə verilən digər prosessual hüquqlardan istifadə etmək hüququna** malikdirlər.

İşdə iştirak edən şəxslərin və açıq məhkəmə iclasında olan şəxslərin məhkəmə iclası zalında əyləşdikləri yerdən məhkəmə baxışının gedişini yazılı formada, həmçinin məhkəmənin icazəsi ilə kompüterdən istifadə etməklə qeydə almaq hüququ vardır. Məhkəmə iclasında qeydlərin səsyazan vasitələrdən istifadə etməklə aparılmasına, habelə kino və fotoçəkilişə, videoyazıya, canlı yayıma (o cümlədən, mobil rabitə vasitələri ilə) işdə iştirak edən şəxslərin rəyi nəzərə alınmaqla məhkəmənin icazəsi ilə yol

verilir. Göstərilən hərəkətlər məhkəmə baxışının normal gedişinə mane olmamalıdır və vaxtla məhdudlaşdırıla bilər.

- **<u>İşlərə xüsusi iddia icraatı qaydasında baxılması</u>**

Mülki-Prosessual Məcəlləyə əsasən, xüsusi iddia icraatı qaydasında ərizə ümumi iddia icraatı qaydasında hazırlanan ərizə formasında tərtib edilir və ümumi aidiyyət qaydalarına əsasən verilir (MPM: Maddə 286.5). Məhkəmə xüsusi iddia icraatı qaydasında seçki (referendumda iştirak) hüquqlarının müdafiəsi barədə ərizələrə baxır.

Seçki (referendumda iştirak) hüquqlarının müdafiəsinə dair işlər üzrə daxil olmuş ərizələrə məhkəmə tərəfindən **3 gün müddətində (seçkilər günü və həmin gündən sonra daxil olmuş ərizələrə isə - dərhal)** baxılır.

- **<u>İşlərə xüsusi icraat qaydasında baxılması</u>**

Məhkəmələr tərəfindən xüsusi icraat qaydasında işlərə iddia icraatı qaydasında baxılır.

**<u>Məhkəmə xüsusi icraat qaydasında aşağıdakı işlərə baxır</u>:**

- **hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsi haqqında;**

Məhkəmə fiziki və hüquqi şəxslərin şəxsi və ya əmlak hüquqlarının əmələ gəlməsi, dəyişməsi, xitam verilməsinin asılı olduğu faktları müəyyən edir.

- **şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi və ya şəxsin ölmüş elan edilməsi haqqında;**

Şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi və şəxsin ölmüş elan edilməsi haqqında ərizə ərizəçinin yaşadığı yer üzrə məhkəməyə verilir.

- **şəxsin məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi haqqında;**

Spirtli içkilərdən, narkotik vasitələrdən və ya psixotrop maddələrdən sui-istifadə etməsinə görə şəxsin məhdud fəaliyyət qabiliyyətli hesab edilməsi haqqında iş onun ailə üzvlərinin və müvafiq icra hakimiyyəti orqanının ərizəsi üzrə qaldırıla bilər.

- **daşınar əşyanın sahibsiz hesab edilməsi və daşınmaz əşya üzərində dövlət mülkiyyəti hüququnun tanınması haqqında;**

Daşınar əşyaların sahibsiz hesab edilməsi haqqında ərizə məhkəməyə bu əşyaya sahiblik etməyə başlamış şəxsin yaşadığı və ya olduğu yerin məhkəməsinə verilir.

Məhkəmə paylanmayan poçt göndərişlərinin açılmasına razılıq alınması haqqında ərizəyə **5 (beş) iş günü ərzində** baxmalıdır.

- **itirilmiş adsız qiymətli kağızlar və orderli qiymətli kağızlar üzrə hüquqların bərpa edilməsi haqqında (çağırış icraatı);**

Adsız qiymətli kağızı və ya orderli qiymətli kağızı itirmiş şəxs, qanunda göstərilmiş hallarda, itirilmiş sənədin etibarsız hesab edilməsi və həmin sənədlər üzrə hüquqların bərpa edilməsini məhkəmədən xahiş edə bilər.

İtirilmiş adsız sənədin etibarsız hesab edilməsi haqqında ərizə sənədi vermiş idarənin (şəxsin) olduğu yerin məhkəməsinə verilir.

- **şəxsin psixiatriya stasionarına məcburi yerləşdirilməsi haqqında;**

Şəxsin psixiatriya stasionarına məcburi yerləşdirilməsi barədə ərizə ailə üzvləri, qəyyum və ya himayəçi, habelə psixiatriya müəssisəsinin rəhbəri tərəfindən şəxsin yaşadığı yer üzrə və ya müəssisənin yerləşdiyi yer üzrə məhkəməyə təqdim olunur.

Şəxsin psixiatriya stasionarına məcburi yerləşdirilməsi barədə ərizəyə hakim iş başlanılan vaxtdan **5 gün ərzində** baxmalıdır.

- **vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatının düzgün olmamasının müəyyən edilməsi haqqında;**

Müvafiq icra hakimiyyəti orqanları hüquq haqqında mübahisə olmadıqda, edilmiş qeydə düzəliş və ya dəyişikliklər etməkdən imtina etdikdə hakim vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı kitablarında (akt kitablarında) qeydlərin düzgün olmamasının müəyyən edilməsi haqqında işlərə baxır.

- **notariat hərəkətlərindən və ya həmin hərəkətlərin aparılmasından imtinaya dair şikayətlər üzrə;**

Maraqlı şəxs aparılmış notariat hərəkətlərini və ya notariat hərəkətlərini aparmaqdan imtinanı düzgün hesab etmədikdə, notariusun və ya notariat əməliyyatını yerinə yetirən orqanın yerləşdiyi yerin məhkəməsinə bu barədə şikayət vermək hüququna malikdir.

- **övladlığa götürmə haqqında ərizələrə;**

Uşağın övladlığa götürülməsi barədə ərizə uşağı övladlığa götürmək istəyən şəxslər (şəxs) tərəfindən övladlığa götürülən uşağın yaşadığı (olduğu) yer üzrə məhkəməyə verilir.

- **şəxsin narkoloji-tibb müəssisəsinə məcburi yerləşdirilməsi haqqında.**

Öz davranış və hərəkətləri nəticəsində dəfələrlə yaxın qohumlarına maddi və mənəvi zərər yetirmiş, uşaqların tərbiyəsinə mənfi təsir göstərmiş, onların hüquqlarını kobudcasına pozmuş,

təklif olunmuş könüllü müalicədən dəfələrlə imtina etmiş narkomaniya xəstəliyinə düçar olan şəxsin narkoloji-tibb müəssisəsinə məcburi yerləşdirilməsi barədə ərizə ailə üzvləri, qəyyum və ya himayəçi tərəfindən şəxsin yaşadığı yer üzrə və ya narkoloji-tibb müəssisəsinin yerləşdiyi yer üzrə məhkəməyə təqdim olunur.

Ərizədə şəxsin narkoloji-tibb müəssisəsinə məcburi yerləşdirilməsinə aid qanunla nəzərdə tutulmuş əsaslar göstərilməlidir və ərizəyə narkoloji-tibb müəssisəsinin əsaslandırılmış tibbi rəyi əlavə edilməlidir.

### b) İşlərə inzibati məhkəmə icraatı qaydasında baxılması

İnzibati məhkəmə icraatı qaydasında inzibati hüquqi mübahisələrə baxılır. İnzibati hüquqi mübahisələr dedikdə inzibati orqanla (müvafiq icra hakimiyyəti orqanları, onların yerli (struktur) və digər qurumları, bələdiyyələr, habelə qanuna əsasən inzibati akt qəbul etmək səlahiyyəti verilmiş hər hansı fiziki və ya hüquqi şəxs) fiziki və hüquqi şəxslər arasında inzibati aktın qəbul olunması, ləğv olunması, dəyişdirilməsi, eləcə də inzibati orqanın hərəkət və ya hərəkətsizlikləri barədə meydana çıxan mübahisələr başa düşülür.

İnzibati-məhkəmə icraatı İnzibati Prosessual Məcəllə (İPM) ilə tənzimlənir. İnzibati məhkəmə icraatı qaydasında işlərə inzibati-iqtisadi məhkəmələr tərəfindən baxılır.

İnzibati-iqtisadi məhkəməyə müraciət iddia ərizəsi formasında edilir. İddia ərizəsi aidiyyatı üzrə inzibati-iqtisadi məhkəməyə yazılı şəkildə verilir. Proses iştirakçılarının sayına görə iddia ərizəsinin və digər sənədlərin surətləri iddia ərizəsinə əlavə olunmalıdır.

İddia ərizəsinin məzmunu ilə bağlı İPM-də olduqca sadə tələblər müəyyən olunmuşdur. Belə ki, iddia ərizəsində aşağıdakılar göstərilməlidir (qısa iddia ərizəsi forması):

1. ərizənin verildiyi məhkəmənin adı;
2. iddiaçı və cavabdeh fiziki şəxslərin soyadları, adları, atalarının adları, yaşayış yerləri, inzibati orqanların (hüquqi şəxslərin) adı və hüquqi ünvanları;
3. iddiaçının (ərizəçinin) tələbi.

Bunlar hər bir iddia ərizəsində göstərilməli olan məlumatlardır. Əgər iddiaçı məhkəmə prosesinin tezləşdirilməsini istəyirsə, iddia ərizəsində həmçinin aşağıdakıları da göstərə bilər (genişləndirilmiş iddia ərizəsi forması):

1. iddiaçının öz tələbini əsaslandırdığı faktlar və digər sübutetmə vasitələri;
2. iddiaçının arzuladığı inzibati aktın qəbul edilməsinin zəruriliyini göstərən hallar və iddiaçının istəyinə uyğun olaraq, həmin inzibati aktın layihəsi;
3. mübahisənin düzgün həll edilməsi üçün zəruri olan digər məlumatlar və iddiaçının vəsatətləri;
4. əsli və ya surəti iddia ərizəsinə qoşulmaqla, mübahisələndirilən inzibati akt və şikayət instansiyasına şikayət verildiyi hallarda şikayət instansiyasının qərarı;
5. ərizəyə əlavə olunmuş sənədlərin siyahısı.

## 2. APELLYASİYA MƏHKƏMƏSİNƏ MÜRACİƏT

Mülki-Prosessual Məcəllənin 357-ci və İnzibati Prosessual Məcəllənin 81-ci maddələrinə əsasən, birinci instansiya məhkəmələri tərəfindən qəbul olunmuş qanuni qüvvəyə minməmiş qətnamə və qərardadlardan tərəflər, üçüncü şəxslər,

xüsusi icraat işlərində ərizəçilər və maraqlı şəxslər apellyasiya şikayəti verə bilər.

**Apellyasiya qaydasında aşağıdakı məhkəmələrə şikayət verilə bilər:**

- ***rayon (şəhər) məhkəmələrinin qətnamə və qərardadlarından, ərazi aidiyyəti üzrə apellyasiya məhkəməsinin mülki kollegiyasına;***
- ***yerli inzibati-iqtisadi məhkəmələrin qətnamələrindən və qərardadlarından ərazi aidiyyəti üzrə apellyasiya məhkəməsinin inzibati-iqtisadi kollegiyasına;***
- ***Naxçıvan Muxtar Respublikası rayon (şəhər) məhkəmələrinin qətnamə və qərardadlarından Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki və inzibati-iqtisadi kollegiyalarına;***

***MPM-in 227-ci maddəsinin tələblərinə görə, bütün məhkəmələrin, o cümlədən, apellyasiya məhkəməsinin qətnaməsi elan edilənədək tərtib olunmalıdır. Müstəsna hallarda, xüsusilə*** mürəkkəb işlər üzrə qətnamə, onun nəticə hissəsi elan edildikdən sonra **10 gün** müddətinədək tərtib edilməli və tərəflərə verilməlidir.

**Apellyasiya şikayəti məhkəmə qətnaməsi rəsmi qaydada verildiyi gündən mülki iş üzrə 1 ay müddətində, inzibati mübahisələrə dair üzrə isə, 30 gün müddətində verilə bilər.**

**Apellyasiya şikayətində aşağıdakı məlumatlar əks olunmalıdır:**

- *şikayətin verildiyi məhkəmənin adı və ünvanı;*
- *şikayəti verən şəxsin soyadı, adı, atasının adı, iş yeri, yaşayış yeri, yaxud olduğu yer və işdə prosessual vəziyyəti;*

- *barəsində şikayət verilən qətnamə, onun qəbul edilmə tarixi, nəticə hissəsi, qətnaməni qəbul edən məhkəmənin adı;*
- *şikayəti verən şəxsin tələbi və işin materiallarına istinad etməklə ərizəçinin qətnaməni düzgün hesab etmədiyi əsaslar;*
- *şikayətə əlavə edilən sənədlərin siyahısı.*

Apellyasiya şikayəti, şikayəti vermiş şəxs, onun qanuni nümayəndəsi və ya nümayəndəsi tərəfindən imzalanmalıdır.

**Apellyasiya şikayəti ona əlavə edilmiş sənədlərlə birgə işə baxmış birinci instansiya məhkəməsi vasitəsi ilə verilir. Apellyasiya şikayəti və ona əlavə olunan yazılı sənədlər işdə iştirak edən şəxslərin sayına uyğun sayda təqdim edilir.**

**Apellyasiya instansiyası məhkəməsində işə, inzibati mübahisələrə dair işlər istisna olmaqla, onun məhkəməyə daxil olduğu gündən 3 ay müddətində baxılmalı və müvafiq məhkəmə aktı qəbul edilməlidir.**

**Apellyasiya instansiyası məhkəməsi:**

- ***qətnaməni dəyişmədən, apellyasiya şikayətini isə təmin etmədən saxlaya bilər;***
- ***qətnaməni tamamilə və ya qismən ləğv edə bilər və birinci instansiya məhkəməsində müəyyən edilmiş hallar və ya əlavə təqdim olunmuş sübutlar əsasında yeni qətnamə qəbul edə bilər;***
- ***qətnaməni dəyişdirə bilər;***
- ***qətnaməni tamamilə və ya qismən ləğv edə bilər, iş üzrə icraata xitam verə və yaxud ərizəni baxılmamış saxlaya bilər.***

Apellyasiya instansiyası məhkəməsinin qətnaməsindən şikayət verilməmişdirsə, qətnamə qəbul edildiyi gündən 2 ay keçdikdən sonra qanuni qüvvəyə minir.

İş mahiyyəti üzrə həll edilmədikdə məhkəmə aktları qərardad formasında çıxarılır. Məhkəmə iş üzrə icraatı dayandırdıqda, icraata xitam verdikdə, iddianı baxılmamış saxladıqda da qərardad çıxarır. Qərardad müşavirə otağında müstəqil akt şəklində qəbul edilir, hakim yaxud hakimlər tərəfindən imzalanır və qəbul edildikdən dərhal sonra həmin məhkəmə iclasında elan olunur.

Məhkəmə mürəkkəb olmayan məsələləri məhkəmə iclasında həll etdikdə, müşavirə otağına getməyib, yerində müşavirə edərək, ayrıca akt şəklində tərtib olunmadan qərardad çıxara bilər.

Məhkəmənin ayrıca akt şəklində çıxardığı qərardad çıxarıldıqdan sonra 5 gün müddətində işdə iştirak edən şəxslərə, aidiyyəti olan digər şəxslərə rəsmi qaydada verilir.

Məhkəmə tərəfindən ayrıca akt şəklində qəbul edilmiş qərardaddan işdə iştirak edən şəxslər və qərardadın bilavasitə aid olduğu digər şəxslər şikayət verə bilər. Şikayət yazılı şəkildə qərardadı qəbul edən məhkəməyə verilir.

**Qərardad tərəfə rəsmi qaydada verildikdən sonra şikayət 10 gün müddətində verilir.** Qərardad ondan şikayət vermək hüququna malik olan şəxslərin yanında elan edilmişdirsə, şikayət vermə müddəti qərardadın elan olunduğu vaxtdan hesablanır.

Şikayətə qərardadı qəbul etmiş birinci instansiya məhkəməsi tərəfindən **3 gün müddətində** baxılır. Şikayət əsaslıdırsa, hakim qərardadı dəyişdirir və ya ləğv edir və mübahisəyə baxılması üçün tərəflərlə birlikdə sonrakı prosessual hərəkətləri yerinə yetirir. Əks təqdirdə, bu şikayət baxıldıqdan sonra **7 gün** müddətində işlə birlikdə müvafiq apellyasiya məhkəməsinə göndərilir. Apellyasiya instansiyası məhkəməsi şikayətə onun məhkəməyə daxil olduğu vaxtdan **20 gün** müddətində baxır.

Apellyasiya məhkəməsinin şikayət üzrə qəbul etdiyi qərardadı çıxarıldığı andan qanuni qüvvəyə minir.

## 3. KASSASİYA MƏHKƏMƏSİNƏ MÜRACİƏT

### • Kassasiya şikayətinin verilməsi

Mülki-Prosessual Məcəlləyə və İnzibati - Prosessual Məcəlləyə əsasən, **apellyasiya məhkəmələrinin mülki kollegiyasının və inzibati-iqtisadi kollegiyasının və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının və inzibati-iqtisadi kollegiyasının qətnamə və qərardadlarından kassasiya şikayəti** verilə bilər. (MPM:Maddə 402, İPM: Maddə 90)

Apellyasiya instansiyası məhkəməsinin qətnamələrindən və qərardadlarından **tərəflər, üçüncü şəxslər, xüsusi icraat işləri üzrə isə ərizəçi və maraqlı şəxslər şikayət verə bilərlər**.

**Apellyasiya instansiyası məhkəmələrinin qətnamələrindən və qərardadlarından kassasiya qaydasında aşağıdakı məhkəmələrə şikayət vermək olar**:

- ***Apellyasiya məhkəmələrinin mülki kollegiyalarının və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının qətnamələrindən və qərardadlarından - Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasına;***
- ***Apellyasiya məhkəmələrinin inzibati-iqtisadi kollegiyalarının və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasının qətnamələrindən və qərardadlarından - Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi məhkəmə kollegiyasına.***

**Apellyasiya instansiyası məhkəməsinin aktlarından kassasiya şikayəti aşağıdakı müddətlərdə verilə bilər:**

- ***qətnamə işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən mülki işlər üzrə 2 ay müddətində, inzibati mübahisələrə dair işlər üzrə 1 ay müddətində;***
- ***qərardad işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 10 gün müddətində.***

| |
|---|
| ***Kassasiya şikayəti yazılı formada işə baxmış apellyasiya məhkəməsi vasitəsi ilə verilir.*** |

***Kassasiya şikayətində aşağıdakı məlumatlar əks olunmalıdır:***

- ***şikayətin verildiyi məhkəmənin adı və ünvanı;***
- ***şikayəti verən şəxsin soyadı, adı, atasının adı, iş yeri, yaşayış yeri, yaxud olduğu yer və işdə prosessual vəziyyəti, şikayəti verən hüquqi şəxsin adı, yerləşdiyi ünvan;***
- ***şikayət olunan məhkəmə aktını qəbul etmiş məhkəmənin adı, aktın qəbul edildiyi tarix, mübahisənin predmeti;***
- ***şikayəti verən şəxsin tələbi, maddi və yaxud prosessual hüquq normalarının düzgün tətbiq edilməməsinin nədən ibarət olması;***
- ***şikayətə əlavə edilən sənədlərin siyahısı.***

**Şikayət onu verən şəxs (onun qanuni nümayəndəsi və ya nümayəndəsi) və şikayəti tərtib etmiş vəkil tərəfindən imzalanmalıdır.**

**Nəzərə almaq lazımdır ki, <u>qanunla kassasiya şikayəti vəkil tərəfindən tərtib edilməli və ərizəçi məhkəmədə vəkillə təmsil olunmalıdır</u>.**

**Azərbaycan Respublikası Ali Məhkəməsinin müvafiq məhkəmə kollegiyasına apellyasiya məhkəməsinin qətnamə**

**və ya qərardadından verilmiş kassasiya şikayətinə onun daxil olduğu gündən <u>2 ay müddətində</u> baxılır.**

- **<u>Əlavə kassasiya şikayətinin verilməsi</u>**

Mülki-Prosessual Məcəllənin 422-ci maddəsinə əsasən, **Azərbaycan Respublikası Ali Məhkəməsi mülki kollegiyasının və inzibati-iqtisadi kollegiyasının qərarlarına təqdimat, şikayət və ya protest əsasında Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunda əlavə kassasiya qaydasında yenidən baxıla bilər.**

**Ali Məhkəmənin Plenumu Ali Məhkəmənin sədrindən, onun müavinindən, kollegiya sədrlərindən və hakimlərindən ibarət tərkibdə fəaliyyət göstərir. Plenum müstəsna olaraq hüquqi məsələlər üzrə işlərə baxır.**

**Qanunla əlavə kassasiya şikayəti vəkil tərəfindən tərtib edilməli və ərizəçi məhkəmədə vəkillə təmsil olunmalıdır.**

**<u>Əlavə kassasiya şikayətində aşağıdakı məlumatlar əks olunmalıdır:</u>**

- ***şikayətin verildiyi məhkəmənin adı və ünvanı;***
- ***şikayəti verən şəxsin soyadı, adı, atasının adı, iş yeri, yaşayış yeri, yaxud olduğu yer və işdə prosessual vəziyyəti, şikayəti verən hüquqi şəxsin adı, yerləşdiyi ünvan;***
- ***şikayət olunan məhkəmə aktını qəbul etmiş məhkəmənin adı, aktın qəbul edildiyi tarix, mübahisənin predmeti;***
- ***şikayəti verən şəxsin tələbi, maddi və yaxud prosessual hüquq normalarının düzgün tətbiq edilməməsinin nədən ibarət olması;***
- ***şikayətə əlavə edilən sənədlərin siyahısı.***

**Əlavə kassasiya qaydasında şikayət aşağıdakı formada Plenuma göndərilir:**

- ***Əsaslar olduqda Azərbaycan Respublikası Ali Məhkəməsinin Sədri təqdimatı, protesti və ya şikayəti iş ilə birlikdə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna göndərir.*** Əlavə kassasiya şikayəti əsaslı hesab edilməzsə, işin Ali Məhkəmənin Plenumuna çıxarılmasından imtina edilir və bu barədə ərizəçiyə yazılı cavab verilir.

**Təqdimat, protest və yaxud şikayət Azərbaycan Respublikası Ali Məhkəməsi kollegiyaları tərəfindən qərar qəbul edildikdən sonra 2 ay müddətində verilə bilər.**

**Beləliklə, əlavə kassasiya şikayəti Ali Məhkəmənin Sədrinə verilir. Ali Məhkəmənin Sədri şikayəti əsaslı hesab etsə, işin Ali Məhkəmənin Plenumunda baxılması barədə təqdimat verir. Ali Məhkəmənin Sədri əlavə kassasiya şikayətini əsaslı hesab etməsə, işin Ali Məhkəmənin Plenumuna çıxarılmasından imtina edir və bu barədə ərizəçiyə yazılı cavab verir.**

Ali Məhkəmənin mülki kollegiyasının və inzibati-iqtisadi kollegiyasının qərarlarından **Azərbaycan Respublikası Ali Məhkəməsinin Sədri işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunulan şəxslərin müraciətinə əsasən, təqdimat vermək hüququna malikdir.**

**Nəzərə almaq lazımdır ki, birinci instansiya, apellyasiya instansiyası və kassasiya instansiyası məhkəmələrinə müraciətlər zamanı qanunla müəyyən edilmiş müddətlər buraxılarsa, buraxılmış müddətin bərpası xahişi ilə məhkəməyə müraciət etmək olar. Məhkəmə müddətin buraxılmasını üzürlü hesab etdikdə, buraxılmış müddəti bərpa edə və müraciəti qəbul edə bilər.**

## 4. DÖVLƏT RÜSUMUNDAN AZADOLMALAR

"Dövlət rüsumu haqqında" qanunla aşağıdakılar dövlət rüsumu ödəməkdən azad olunurlar:

- əməyin ödənilməsi və əmək fəaliyyəti ilə bağlı digər tələblər üzrə -iddiaçılar;
- aliment alınması barədə iddialar üzrə - iddiaçılar;
- şikəstlik, səhhətə digər xəsarətlər yetirilməsinə və ya ailəni dolandıranın ölümü nəticəsində dəyən ziyanın ödənilməsi barəsində iddialar üzrə – iddiaçılar;
- müəlliflik mübahisələri üzrə - müəlliflər, müəlliflik hüququ, ixtiralar, faydalı modellər, sənaye nümunələri, habelə əqli mülkiyyətin digər növlərinə dair hüquqlardan irəli gələn iddialar üzrə - iddiaçılar;
- istehlakçıların hüquqlarının pozulması ilə əlaqədar verdikləri iddialar üzrə - iddiaçılar;
- zərərçəkənə və ya onun ailə üzvlərinə ödənilmiş müavinət və ya pensiya məbləğinin zərər vurandan tutulması barədə reqres iddialar üzrə - sosial sığorta orqanları və əhalinin sosial müdafiə mərkəzləri;
- sosial müdafiə vasitələrinin tələbi barədə iddialar üzrə - sosial təminat orqanları;
- borcludan tutulmalı olan, lakin borc tutan şəxsin hesabına keçirilməyən məbləğə görə iddialar üzrə - iddiaçılar;
- cinayət nəticəsində dövlətə vurulmuş maddi zərərin ödənilməsi barədə prokuror tərəfindən verilən iddialar üzrə – iddiaçılar;
- aliment verməkdən, şikəst etmə və ya səhəti sair şəkildə zədələnmə ilə, habelə ailəni dolandıranın ölümü ilə vurulan ziyanı ödəməkdən, vergilərin və digər məcburi ödəmələrin tutulmasından boyun qaçıran şəxslərin axtarışı ilə əlaqədar xərclərin tələb olunması üzrə – polis orqanları;

- cinayət işləri və aliment işləri ilə əlaqədar olaraq vətəndaşlara, müəssisələrə və təşkilatlara sənədlər (arayışlar) verilməsi üçün – vətəndaş, müəssisə, idarə və təşkilatlar;
- inzibati hüquq münasibətlərindən əmələ gələn işlər üzrə – vətəndaş, inzibati orqanlar və vəzifəli şəxslər;
- qanunsuz olaraq qəti imkan tədbiri kimi həbsə alınmaqla, yaxud həbs və ya islah işləri növündə qanunsuz olaraq inzibati tənbeh verilməsi ilə fiziki şəxsə vurulmuş zərərin ödənilməsi ilə əlaqədar mübahisələr üzrə - tərəflər;
- məhkəmələrə verilən iddia ərizələri və bütün növ şikayətlər üzrə - büdcə təşkilatları, bələdiyyələr;
- başqa şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin, dövlət mənafeyinin müdafiəsi üçün verilən ərizələr üzrə - dövlət orqanları;
- öz hüquqlarının müdafiəsi barədə ərizələr üzrə – yetkinlik yaşına çatmayanlar;
- məhkəmə qərardadlarından verilən şikayətlər üzrə - işdə iştirak edən şəxslər;
- qiyabi icraat qaydasında qəbul edilmiş qərarlara yenidən baxılması haqqında birinci instansiya məhkəmələrinə verilən ərizələr üzrə - tərəflər;
- yeni açılmış hallara görə qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yenidən baxılması üçün verilmiş ərizələr üzrə - tərəflər;
- məhkəmədə verilən iddialar üzrə - şəhid ailələri, müharibə veteranları, qaçqınlar və məcburi köçkünlər, habele Çernobıl AES-də qəza nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslər.
- Hüquqi şəxsin təqsiri üzündən icra sənədi üzrə borcludan tutulmalı olan məbləğin tutulmamasına görə ona qarşı iddialar üzrə – tələbkar;
- İcra üzrə icraat zamanı borclunun və ya onun əmlakının tapılması ilə əlaqədar elan olunmuş axtarış üzrə xərcləri

- İcra üzrə icraat zamanı borclunun və ya onun əmlakının tapılması ilə əlaqədar elan olunmuş axtarış üzrə xərcləri ödəməkdən borclu imtina etdikdə və ya yayındıqda, tələbkar tərəfindən çəkilmiş xərclərin əvəzinin ödənilməsi barədə iddialar üzrə – tələbkar.

Məhkəmə aktlarının surəti işdə iştirak edən şəxslərə dövlət rüsumu alınmadan verilir. Məhkəmə aktları təkrarən verildikdə dövlət rüsumu alınır. Məhkəmədə təkrar verilmiş iddialar üzrə dövlət rüsumu yenidən ümumi qaydada alınır. İddiaçı müəyyən olunmuş qaydada dövlət rüsumunu ödəməkdən azad edilmişsə, dövlət rüsumu iddianın təmin edilmiş hissəsinə münasib olaraq cavabdehdən tutularaq dövlət büdcəsinə köçürülür.

## III. KONSTİTUSİYA MƏHKƏMƏSİNƏ MÜRACİƏT

Konstitusiya Məhkəməsi ali Konstitusiya nəzarəti orqanıdır və növbəti məhkəmə instansiyası hesab edilmir. Konstitusiyasının 130-cu maddəsinin V hissəsi və "Konstitusiya Məhkəməsi haqqında" Qanununun 34-cü və 35-ci maddələrinə müvafiq olaraq Konstitusiya Məhkəməsinə fərdi şikayətlər verilə bilər.

**Konstitusiya Məhkəməsinə fərdi şikayətlər şəxsin hüquq və azadlıqları qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktları, bələdiyyə və məhkəmə aktları ilə pozulduqda verilə bilər.**

**Şikayət aşağıdakı tələblərə əməl olunduqdan sonra verilir:**

- ***məhkəmə aktından şikayət vermək hüququndan tam istifadə edildikdən sonra axırıncı məhkəmə instansiyasının (Ali Məhkəmənin) qərarının qüvvəyə mindiyi andan 6 ay müddətində;***
- ***məhkəməyə müraciət hüququ pozulduqda isə, həmin hüququn pozulduğu andan 3 ay müddətində.***

Birinci halda göstərilən qaydaya müvafiq olaraq, şəxs şikayətlə Konstitusiya Məhkəməsinə müraciət etməzdən əvvəl digər mümkün hüquq-müdafiə vasitələrindən istifadə etməlidir. Məhkəmə aktından şikayət vermək hüququndan tam istifadə edilməsi isə onu nəzərdə tutur ki, şəxs bütün məhkəmə instansiyalarını keçməli və yalnız kassasiya instansiyası məhkəməsinin (Ali Məhkəmə) iş üzrə yekun aktını qəbul etdikdən sonra şikayətlə Konstitusiya Məhkəməsinə müraciət edə bilər.

Müddətlərlə bağlı isə qeyd etmək lazımdır ki, Qanunda qeyd olunan sonuncu məhkəmə instansiyası Ali Məhkəməni

ehtiva edir və bu orqanın qərarları qəbul edildiyi andan qüvvəyə minir.

**«Konstitusiya Məhkəməsi haqqında» Qanun şikayət vermənin yuxarıdakı qaydasından istisnanı da nəzərdə tutur. Belə ki, həmin Qanunun 34.5-ci maddəsinə müvafiq olaraq, hüquq və azadlıqların pozulması nəticəsində ərizəçiyə ağır və bərpaedilməz zərərin vurulmasının digər məhkəmələr vasitəsilə qarşısının alınması mümkün olmadıqda, şikayət bilavasitə Konstitusiya Məhkəməsinə verilə bilər. Lakin qanunvericilikdə "ağır və bərpaedilməz zərərin vurulmasının digər məhkəmələr vasitəsilə qarşısının alınması mümkün olmadıqda" müddəasının anlayışı verilməyib və hansı halların bu müddəanın təsiri altına düşdüyü konkret müəyyənləşdirilməyib. Ona görə də, bu əsasın mövcudluğu hər bir konkret haldan asılı olaraq Konstitusiya Məhkəməsi tərəfindən müəyyənləşdirilir.**

Eyni zamanda onu da qeyd edək ki, Konstitusiya Məhkəməsinin Plenumu ağır və bərpaedilməz zərərin vurulmasının qarşısının alınması məqsədilə işin mahiyyəti üzrə qərar qəbul edilənədək mübahisə olunan normativ hüquqi aktın və ya bələdiyyə aktının icrasının dayandırılmasına dair qərar qəbul edə bilər və tərəflərə mübahisənin məhkəməyədək nizamlanmasını təklif edə bilər. *("Konstitusiya Məhkəməsi haqqında" Qanunun 52.4-cü maddəsi)*

**Şikayətdə aşağıdakılar göstərilməlidir**:

- ***Konstitusiya Məhkəməsinin adı;***
- ***şəxsin adı, soyadı, atasının adı, ünvanı;***
- ***mübahisə olunan normativ–hüquqi, məhkəmə və ya bələdiyyə aktını qəbul etmiş dövlət və yerli özünüidarə orqanının adı və ünvanı;***

- ***Konstitusiya Məhkəməsinə müraciət hüququ verən Azərbaycan Respublikası Konstitusiyasının və «Konstitusiya Məhkəməsi haqqında» Qanunun normaları;***
- ***mübahisə olunan aktın dəqiq adı, qəbul edildiyi tarix, nömrəsi, dərc olunduğu mənbə və ona dair digər məlumatlar;***
- ***məsələyə dair şəxsin mövqeyi və Azərbaycan Respublikası Konstitusiyasının və ya digər normativ-hüquqi aktların müvafiq normalarına istinadla onun hüquqi əsaslandırılması;***
- ***Konstitusiya Məhkəməsinə şikayətlə əlaqədar ünvanlanmış xahiş.***

**Şikayətdə aşağıdakılar əsaslandırılmalıdır:**

- ***mübahisə olunan normativ-hüquqi, məhkəmə və ya bələdiyyə aktı ilə ərizəçinin hüquq və azadlıqlarının pozulması;***
- ***məhkəmə aktından şikayət vermək hüququndan tam istifadə edilməsi, məhkəməyə müraciət etmək hüququnun pozulması və ya ağır və bərpaedilməz zərərin vurulmasının digər məhkəmələr vasitəsilə qarşısının alınmasının mümkün olmaması.***

**Şikayətlərə aşağıdakılar əlavə edilməlidir:**

- ***ərizəçinin qənaətinə görə işin hallarının aydınlaşdırılması üçün lazım olan izahatlar və sənədlər;***
- ***qanuni nümayəndə istisna olmaqla nümayəndənin səlahiyyətini təsdiq edən etibarnamə və ya digər sənəd (məs: təşkilat rəhbərinin səlahiyyətlərini təsdiq edən vəsiqəsi);***

- ***mübahisə olunan normativ hüquqi, məhkəmə və ya bələdiyyə aktının surəti;***
- ***başqa dildə verilmiş bütün sənədlərin və ya digər materialların Azərbaycan dilində tərcüməsi;***
- ***məhkəmə aktından şikayət vermək hüququndan tam istifadə edilməsini və ya məhkəməyə müraciət etmək hüququnun pozulmasını təsdiq edən sənədlər.***

Fərdi şikayətlər Konstitusiya Məhkəməsinə poçt vasitəsilə göndərilə və ya şəxsən təqdim oluna bilər.

**Konstitusiya Məhkəməsinə müraciət üzrə qanunla müəyyən edilmiş müddət buraxıldıqda müddətin bərpası nəzərdə tutulmur.**

**Konstitusiya Məhkəməsinin qərarlarının icrası məcburidir.**

## IV. AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNƏ MÜRACİƏT QAYDALARI.

Şikayətçi ölkədaxili hüquq müdafiə mexanizmlərindən tam istifadə etdikdən sonra Ali Məhkəmənin müvafiq kollegiyalarının qərarından narazı qalarsa, müvafiq qaydalara və tələblərə əməl etməklə ərizə ilə Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edə bilər. Eyni zamanda onu da qeyd edək ki, bir sıra hallarda işin xarakterinə görə həmin iş üzrə sonuncu məhkəmə instansiyası apellyasiya məhkəməsidirsə (məsələn, məhkəmə nəzarəti qaydasında baxılan işlər), bu halda apellyasiya məhkəməsinin qərarından sonra Avropa Məhkəməsinə şikayət vermək olar.

Nəzərə almaq lazımdır ki, Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət o halda edilir ki, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası və ona əlavə edilmiş Protokollarda təsbit edilmiş insan hüquq və azadlıqları pozulmuş olsun.

**Konvensiya və onun Protokolları xüsusilə aşağıda göstərilən hüquqları müdafiə edir:**

- ***Yaşamaq hüququ;***
- ***Mülki və cinayət işlərində ədalətli mühakimə olunmaq hüququ;***
- ***Şəxsi və ailə həyatına hörmət olunması hüququ;***
- ***Fikri ifadə etmək azadlığı;***
- ***Fikir, vicdan və din azadlığı;***
- ***Səmərəli hüquqi müdafiə vasitələri hüququ;***
- ***Ədalətli məhkəmə araşdırması hüququ;***
- ***Seçmək və seçilmək hüququ;***
- ***Toplaşmaq və birləşmək azadlığı;***
- ***Hərəkət azadlığı;***

**Konvensiya və onun Protokolları aşağıdakı halları qadağan edir:**

- ***İşgəncə verilməsini, qeyri-insani və ya ləyaqəti alçaldan təhqiredici rəftarı və cəzanı;***
- ***Əsassız və qanunsuz həbs olunmanı;***
- ***Ayrı seçkiliyi;***
- ***Konvensiyada təsbit olunan hüquq və azadlıqlardan qeyri-bərabər istifadə olunmasını;***
- ***Dövlətin öz vətəndaşlarını ərazisindən çıxarmasını və ya onlara həmin dövlətin ərazisinə daxil olmağa qadağa qoymasını;***
- ***Ölüm cəzasının tətbiq edilməsini;***
- ***Əcnəbi vətəndaşların ölkədən kollektiv şəkildə çıxarılmasını.***

Konvensiyanın 34-cü maddəsinə əsasən, siz yalnız hüquq pozuntusunun şəxsən və bilavasitə qurbanı olduğunuz təqdirdə Məhkəməyə müraciət edə bilərsiniz.

**Müraciət aşağıdakı qaydalara uyğun verilməlidir:**

- ***Ərizə forması Məhkəmənin rəsmi dillərindən birində (ingilis və ya fransız), yaxud da Konvensiyanı ratifikasiya etmiş dövlətlərin birinin rəsmi dilində göndərilə bilər (məsələn: Azərbaycan, Rus, Türk və s.).***
- ***Şikayət ərizəsi faksla göndərilirsə, eyni ərizə daha sonra poçt vasitəsilə də göndərilməlidir.***
- ***Şikayətin şifahi şəkildə şəxsən çatdırılması üçün Strasburqa getməyə ehtiyac yoxdur. Bu şikayətin daha tez baxılmasına kömək etməyəcək və heç bir hüquqi məsləhət verilməyəcək.***
- ***Məhkəmənin Qeydiyyat şöbəsi şikayət ərizəsi ilə bağlı əlavə sənəd, məlumat və ya izahat istəyə bilər.***

**Ərizə formasını** Avropa Şurasının Azərbaycan Respublikasındakı Ofisinin internet səhifəsindən yükləyə bilərsiniz:

**http://coe.az/AZ/**

**Ərizə formasında aşağıdakılar göstərilməlidir:**

- ***Faktların və şikayət edilən məsələnin qısa təsviri;***
- ***Pozulduğu güman edilən Konvensiya müddəaları;***
- ***Ölkə daxilində artıq həyata keçirilən məhkəmə araşdırmalarının siyahısı; İş üzrə müraciət edilən bütün qurumlar tərəfindən verilən qərarların surəti (bu sənədlər geri qaytarılmayacaq, ona görə də Məhkəməyə ancaq onların surətləri göndərilməlidir);***
- ***Şikayət ərizəsini göndərən şəxsin və ya onu təmsil edən şəxsin imzası. Bu şəxs nümayəndə və ya vəkil ola bilər.***
- ***Əgər şəxsiyyətin gizli saxlanılması istənilirsə, səbəbləri göstərilməklə dərhal Məhkəmə bu barədə xəbərdar edilməlidir. Bundan sonra xahişin təmin edilib-edilməməsini Məhkəmənin Sədri müəyyənləşdirəcək.***

**Şikayət aşağıdakı pozuntulardan verilə bilər:**

- Şikayət ərizəsi Avropa İnsan Hüquqları Konvensiyasında təsbit olunmuş hüquqlardan biri ilə əlaqədar olmalıdır.
- Haqqında şikayət ərizəsi daxil olan pozuntular özündə geniş məsələləri ehtiva edə bilər. Məsələn, həbs olunan insanlara qarşı işgəncələrin tətbiq edilməsi və onlara qarşı qeyri-insani rəftar, qeyri-qanuni həbs, mülki və cinayət işləri üzrə məhkəmə proseslərindəki nöqsanlar, qanunların tətbiqi zamanı ayrıseçkiliyə yol verilməsi, valideynlərin uşaqlar üzərində hüquqları, mənzil və yazışma hüququna hörmətlə yanaşılması, fikirlərin sərbəst şəkildə ifadə edilməsi və informasiyanın əldə edilməsi, yaxud ötürülməsi zamanı məhdudiyyətlərin qeydə alınması,

nümayişlərdə sərbəst iştirak etmək hüququ, ölkədən zorla çıxarılma və ekstradisiya, əmlak müsadirəsi işləri üzrə və əmlakın şəxsin əlindən zorla alınması.

**Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etməzdən əvvəl milli məhkəmələrdə yerinə yetirilməsi vacib sayılan tələblər aşağıdakılardır:**

- Şikayət edilən məsələ ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etməzdən əvvəl ölkədə bütün hüquqi müdafiə vasitələrindən istifadə edilməlidir
- Bəzən bu instansiyalara müraciət edilməsi hüquqların təmin edilməsinə kifayət etmir. Bu halda Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edilə bilər.
- Son instansiya hesab edilən yerli məhkəmə (adətən bu Ali Məhkəmə hesab olunur, əlavə kassasiyanı keçmək vacib deyil) qəti qərar çıxardıqdan sonra **altı ay ərzində** Avropa İnsan Hüquqları Məhkəməsinə şikayət ərizəsi ilə müraciət edilə bilər. Bu müddət bitdikdən sonra müraciət Məhkəmə tərəfindən qəbul edilə bilməz.

**Beləliklə, fərdi şikayət aşağıdakı meyarlara cavab verməlidir:**

***<u>1. Fərdi şikayətin bütün ölkədaxili hüquq müdafiə vasitələrinin tükənməsindən sonra verilməsi;</u>***

Ölkədaxili hüquq müdafiə vasitələrinin tükənməsi Məhkəməyə müraciət etmənin vacib şərtlərindən biridir. Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə görə, təkcə Məhkəmə yolu ilə üç hüquq müdafiə (birinci instansiya; apellyasiya; kassasiya və əlavə kassasiya) pilləsi nəzərdə tutulub.

***<u>2. Fərdi şikayətin ölkədaxili hakimiyyət orqanlarının müvafiq hüquq pozuntusu ilə bağlı sonuncu qərarının çıxarıldığı tarixdən 6 ay müddətində verilməsi;</u>***

Altı aylıq müddət ölkədaxili hüquq müdafiə vasitələri istifadə edilib tükənməsi zamanı hakimiyyət orqanları tərəfindən çıxarılmış son qərardan etibarən hesablanır. Bu zaman ərizəçinin belə qərardan xəbər tutması anı nəzərə alınır.

Ölkə qanunvericiliyi ilə daxili müdafiə vasitələri nəzərdə tutulmayan işlər üzrə isə şikayət edilən hadisənin baş verməsindən **altı ay ərzində** Məhkəməyə müraciət edilməlidir. Bu müddət buraxıldıqda onun bərpası nəzərdə tutulmur.

***3. Fərdi şikayətin anonim olmaması;***

Məhkəmə anonim (imzalanmayan və ya düzgün imzalanmayan) ərizələri qəbul etmir. Müraciət ərizəçini tanıtmalıdır. Bununla yanaşı, ərizəçinin xahişi ilə onun adı məxvi saxlanıla bilər. Belə halda ərizəçinin adı Məhkəmə hesabatlarında onun adı və soyadının baş hərflərilə göstərilir.

***4. Fərdi şikayətin mahiyyətcə məhkəmənin artıq baxdığı məsələ ilə eyni olmaması;***

Məhkəmə icraatında mahiyyət etibarı ilə eyni şikayətə ikinci dəfə baxılması yolverilməz hesab edilir. Lakin, ərizə daxili hüquq müdafiə vasitələrinin tükənməməsi əsasında qəbuledilməz elan olunubsa, onda ərizəçi həmin vasitələr tükəndikdən sonra yenidən Məhkəməyə öz ərizəsini təqdim edə bilər.

***5. Fərdi şikayətin (yuxarıda qeyd edildiyi kimi) Konvensiya və onun Protokollarının müddəalarına zidd olmaması;***

***6. Şikayətin aydın əsaslandırılması;***

Fərdi şikayət aydın əsaslandırılmalı, kifayət qədər sübutları özündə ehtiva etməlidir. Şikayətin predmeti Konvensiyanın müddəalarının pozulması ilə bağlı olmalıdır.

***7. Şikayət vermək hüququndan sui-istifadə edilməməsi.***

Şikayət ərizəsində xoşagəlməz və ya təhqiredici ifadələr işlədilməməlidir. Əks təqdirdə, belə hal ərizə vermək hüququn-

dan sui-istifadə etmək kimi qiymətləndirilərək, ərizənin qəbul edilməməsinə səbəb olur. Eyni zamanda, fərdi şikayətdən siyasi təbliğat vasitəsi və ya reklam məqsədi ilə istifadə etmək kimi hallar da yol verilməz hesab edilir.

***Konvensiyanın 35-ci maddəsinə əsasən, yalnız yuxarıda sadalanan meyarlara cavab verən fərdi şikayət Məhkəmə tərəfindən baxılmağa qəbul edilir.***

**Avropa Məhkəməsinin qərarlarının icrası məcburi xarakter daşıyır.**

**Şikayətin bütün detallarını aydın şəkildə göstərmək şərtilə məhkəməyə məktubla müraciət edilə və yaxud ərizə forması doldurularaq aşağıdakı ünvana göndərilə bilər:**

***The Registrar***
***European Court of Human Rights***
***Council of Europe***
***F-67075 Strasbourg Cedex, France***

***Avropa İnsan Hüquqları Məhkəməsi haqqında əlavə məlumatı aşağıdakı internet ünvanından əldə edə bilərsiniz: www.echr.coe.int***

## V. ATƏT-İN BAKI OFİSİNİN RESURS MƏRKƏZLƏRİ

ATƏT-in Bakı ofisinin maliyyə dəstəyi ilə Sumqayıt, Lənkəran, Gəncə və Şəki şəhərlərində Qanunun Aliliyi-Hüquq Resurs Mərkəzləri pulsuz hüquqi yardım göstərirlər.

**Mərkəzlərdə aşağıdakı proqramlar icra edilir:**

### ***Pulsuz hüquqi yardım***

Bölgələrdə yerli əhaliyə təcrübəli hüquqşünaslar tərəfindən hər növ pulsuz hüquqi məsləhətlər verilir; ərizəçilərin adından dövlət orqanlarına ünvanlanmış ərizələr, şikayətlər və digər sənədlər tərtib olunur; ərizəçilərin adından iddialar hazırlanıb məhkəmələrə, o cümlədən Avropa İnsan Hüquqları Məhkəməsinə təqdim edilir.

Mərkəzlərdə çalışan hüquqşünaslar mülki məsələlər üzrə hüquqi təmsilçilik xidməti göstərə bilərlər. Mərkəzin hüquqşünasları ərizə əsasında məhkəmə proseslərinin müşahidəsini apara bilər.

Ucqar yerlərdəki əhaliyə telefon vasitəsilə təcili hüquqi yardım etmək üçün Mərkəzlər nəzdində xüsusi qaynar xətt yaradılmışdır. Qaynar xətt hər iş günü 8 saat xidmət göstərir.

### ***Təlim proqramlarına dəstək***

ATƏT-in Bakı Ofisi ilə əməkdaşlıq çərçivəsində Mərkəzlərdə və adı çəkilən bölgələrdə, məhkəmə və prokurorluğa namizədlər, o cümlədən, vəkillər, hakimlər və prokurorluğun rəsmiləri, həmçinin müstəntiqlər üçün təlim proqramları təşkil olunur.

***Qanunun Aliliyi Resurs Xidmətləri***

Bölgələrin hüquqi bilikli əhalisini pulsuz hüquqi kitablar, digər hüquqi materiallar, hüquqi məlumat bazası, qanunvericilik, icra hakimiyyətlərinin aktları və bələdiyyələrin qərarları ilə təmin etmək üçün Mərkəzlərdə hüquqi kitabxana fəaliyyət göstərir.

Mərkəzlər, adıçəkilən ərazilərin hüquqi bilikli əhalisi üçün kompüter/internet təchizatını təmin edir.

**Mərkəzlərə iş günləri saat 09:00-dan 18:00 – dək müraciət edilə bilər.**

**GƏNCƏ Qanunun Aliliyi Hüquq Resurs Mərkəzi**
Ünvan: AZ2010, Gəncə şəhəri, Cavadxan küçəsi 35/1,
Tel/faks: (022) 56 40 42
Qaynar xətt: (088) 202 02 02
Elektron ünvan: sevinj@transparency.az

**LƏNKƏRAN Qanunun Aliliyi Hüquq Resurs Mərkəzi**
Qaynar xətt: (088) 303 03 03
Elektron ünvan: afig@transparency.az

**SUMQAYIT Qanunun Aliliyi Hüquq Resurs Mərkəzi**
Ünvan: AZ5004, Sumqayıt şəhəri,
N. Nərimanov küçəsi, 1-ci mikrorayon, bina 45b.
Tel/faks: (018) 642 48 27
Mobil: (050) 797 97 70
Elektron ünvan: qanununaliliyi@mail.ru
Res_centre@mail.ru

**ŞƏKI Qanunun Aliliyi Hüquq Resurs Mərkəzi**
Qaynar xətt: (088) 505 05 05
Elektron ünvan: tural@transparency.az

**PULSUZDUR**